AZƏRBAYCAN www.azerbaijan-news.az

# Dostluq və qardaşlığın təntənəsi

## *"Türk dünyasının mədəniyyət paytaxtı - Şəki-2016" ilinin açılış mərasimində iştirak edən xarici qonaqlar gördüklərindən məmnun qalıblar*

Dağlar qoynunda qərarlaşan, füsunkar gözəlliyi ilə seçilən Şəki yenə də canlanıb. İnsanları isti otaqda qalmağa məcbur edən qışın öz yerini günəşli bahara verməsi, deyəsən, yenə də bu məkanın qonaq-qara üzünə qapılarını daha geniş açmağa təkan verib.




Hər zaman Azərbaycan mədəniyyətinin inkişafına verdiyi xüsusi töhfələri ilə seçilən Şəki son illər maraqlı beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrilib. İndi Şəki festivallar şəhəri statusuna da sahiblənib. Rayon mərkəzinin paytaxt Bakıdan uzaq olması belə insanları bura gəlmək fikrindən daşındıra bilmir. Bunun isə çoxsaylı səbəbləri var. Əgər onlardan birincisi Şəkinin tarixi-memarlıq abidələri ilə zəngin olmasıdırsa, digərləri buradakı unikal sənətkarlıq nümunələri, spesifikliyi ilə seçilən milli mətbəxi, Şəkinin astanasına qədəm qoyan hər bir insana yetirilən diqqət, göstərilən mehribanlıqdır.

Yuxarıda qeyd olunanların hər biri ümumi mövzu ilə əlaqəli olsa belə, mətləbdən çox da uzaqlaşmayaq. Mətləb isə bu günlər Şəkinin seçilənlər arasında olmasından qaynaqlanan möhtəşəm bir tədbirə evsahibliyi etməsidir. Aprelin 28-də Şəkidə "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində, Qala divarlarının içərisində "Türk dünyasının mədəniyyət paytaxtı - Şəki-2016" ilinin təntənəli açılış mərasimi keçirilib. Keçən il TÜRKSOY-un mədəniyyət nazirlərinin Daimi Şurasının 33-cü toplantısı çərçivəsində Türkmənistan Respublikasının Mari şəhərində keçirilən mədəniyyət məsələləri üzrə məsul nazirlərin toplantısında Şəki şəhəri 2016-cı il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilib.

Tədbirdə TÜRKSOY-un və digər beynəlxalq təşkilatların rəsmiləri, türkdilli ölkələrdən gəlmiş nümayəndə heyətləri, Milli Məclisin deputatları, Azərbaycanda fəaliyyət göstərən səfirliklərin təmsilçiləri, görkəmli elm və incəsənət xadimləri, şəhər ictimaiyyətinin nümayəndələri və digər qonaqlar iştirak edirdilər.

Tədbir iştirakçılarının belə bir möhtəşəm tədbirlə bağlı fikirlərini öyrənmək istədik. Məqsəd Şəkini bura qonaq qismində təşrif buyuran qonaqların gözü ilə görmək və onların düşüncələrini bölüşmək idi.

Əvvəlcə Türkiyə Prezidentinin baş məsləhətçisi **Yalçın Topçu**nun fikirlərini öyrəndik. O dedi: "Belə bir möhtəşəm tədbirdə iştirakdan məmnunluq duyuram. Şəki haqqında kifayət qədər eşitmişəm. Bu məkanı görmək həsrətində idim. Mən çox sevinirəm ki, Şəkiyə gəlişim məhz "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi münasibətilə keçirilən tədbirə təsadüf edir. Düşünürəm ki, Azərbaycanın tolerant ölkə olması, o cümlədən Şəkidə fərqli etnik qrupların yaşamasına baxmayaraq, bütün mədəniyyətlərin bir-birinə inteqrasiya etməsi onun hazırkı statusu qazanmasına təsirsiz ötüşməyib.

Səmimi şəkildə deyirəm: Xan sarayını görməyim, sözün əsl mənasında, məni çox-çox geriyə - bu möhtəşəm sarayın inşa olunduğu zamana apardı. Bir daha qədim türk yurdu olan bu obanın mədəni köklərinin nə qədər dərin olmasına əminliyim yarandı. Bu baxımdan, düşünürəm ki, Şəkinin türk xalqlarının mədəniyyət paytaxtı statusuna malik olmasında xeyli gecikmələr var".

Dünya şöhrətli yazar **Oljas Süleymenov** söhbətimizdə dedi: "Mən türk dünyasının ən mükəmməl xalqları arasında qardaş Azərbaycanla həmişə fəxr etmişəm. Bu torpağın yetirmələri türk toplumunun hansı gücə, hansı istedada malik olmasını dəfələrlə dünya səviyyəsində sərgiləyiblər. Real olaraq mənim Azərbaycana budəfəki səfərimin əsas səbəbi Bakıda Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda iştirakla bağlı idi. Lakin tədbir zamanı Şəki şəhərində keçiriləcək möhtəşəm tədbirə dəvət aldım. Bu fürsəti mütləq dəyərləndirmək lazım idi.

Şəkiyə səfər zamanı məni sevindirən əsas məqamlardan biri də məhz türk dünyasının sayılıb-seçilən söz ustadı Bəxtiyar Vahabzadənin doğulub boya-başa çatdığı torpağa gəlməyim idi. İnanıram ki, hazırda böyük şair Bəxtiyarın müqəddəs ruhu başımızın üzərindədir və hər birimizə səmimi təbəssümlə Türk dünyasının mədəniyyət paytaxtına xoş gəlmisiniz, deyir.

Azərbaycan memarlığının nadir incilərindən olan Şəki xanlarının sarayı, sarayın qarşısındakı meydançada qədim milli atüstü oyunlardan olan çövkən yarışlarının keçirilməsi, folklor qruplarının ifası, sarayın həyatində xanlıqlar dövrünü xatırladan bədii proqramın nümayişi məni çox heyran etdi. Ümumilikdə düşünürəm ki, təşkilatçılığa söz ola bilməz".

TÜRKSOY-un baş katibi **Düsen Kaseinov** isə düşüncələrini belə ifadə etdi: "TÜRKSOY-un Mədəniyyət nazirlərinin Daimi Şurası mədəniyyət məsələləri üzrə məsul nazirlərin toplantısında hər il bir türk ölkəsi və ya şəhəri Türk dünyasının mədəniyyət paytaxtı seçilir. Şəki belə şəhərlər arasında seçilənlərdən beşincisidir. Şəkinin festivallar şəhəri olması, o cümlədən bir-birinin ardınca burada keçirilən beynəlxalq tədbirlər, yaradılan infrastruktur, dadlı şirniyyatlar və yumoru da mədəniyyət paytaxtı olmasına təsirini göstərir. İnanıram ki, bu il ərzində belə bir statusa malik olması Şəkinin nüfuzunun artmasına və daha geniş coğrafiyada tanınmasına şərait yaratmış olacaq. Eyni zamanda mövcud status bu qədim şəhərə və onun kəndlərinə gələn turistlərin sayının da xeyli artmasına əhəmiyyətli dərəcədə təsirini göstərmiş olacaq. Ümumiyyətlə isə hesab edirəm ki, Şəki bütün bunlara layiqdir."

BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi **Nasir Əbdüləziz Əl-Nasir** də Şəkinin qonaqlarındandır. O da mövcud tədbirlə bağlı düşüncələrini bu şəkildə bölüşdü: "Bildiyiniz kimi, iki gün əvvəl Bakı növbəti beynəlxalq tədbirə - Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna evsahibliyi etdi. Doğrudan da Azərbaycan bir daha özünün necə multikultural dəyərlərə malik olduğunu və qədim ənənələri qoruduğunu sübut etdi. Bu gün mən və nümayəndə heyətimiz daha bir möhtəşəm tədbirin qonağı olduq. Şəki ilə tanışlıq məndə xoş təəssürat doğurdu. Gördüklərim məni olduqca məmnun etdi. Xüsusən dünya mədəniyyət incisi sayılan Xan sarayı ilə tanışlığım məni duyğulandırdı. Şəkinin və şəkililərin bundan sonra daha çox sayda qonaq qarşılamalı olacaqlarını düşünürəm".

Şəki ilə bağlı müvafiq qərarın qəbul edilməsi heç də təsadüfi deyildir. İndiyədək TÜRKSOY təşkilatının yaxından iştirakı ilə Şəki şəhərində müxtəlif layihələr həyata keçirilib. 2012-ci ildə Şəki şəhəri TÜRKSOY tərəfindən "Türk dünyasının qeyri-maddi mədəni irs paytaxtı" seçilib, 2012-ci il "Mirzə Fətəli Axundzadə ili" elan edilib. 2014-cü ildə qurumun təşkilatçılığı ilə Şəkidə rəssamların sərgisi və türkdilli ölkələrin milli geyimlərindən ibarət dəfilə təşkil edilib.

Şəkinin "Türk dünyasının mədəniyyət paytaxtı" şəhəri seçilməsi ilə əlaqədar Mədəniyyət və Turizm Nazirliyi, Şəki Şəhər İcra Hakimiyyəti və TÜRKSOY-un birgə tədbirlər planı hazırlanıb. Tədbirlər planına uyğun olaraq il ərzində Şəkidə müxtəlif beynəlxalq festivalların, sərgilərin, tamaşaların, konsert proqramlarının, "paytaxt ili"nin təntənəli bağlanış mərasiminin keçirilməsi, çoxsaylı xarici qonaqların qəbul edilməsi planlaşdırılır.

"Türk dünyasının mədəniyyət paytaxtı"nın loqotipi də təsdiq edilib. Loqotipdə əsasən ölkəmizi və Şəki şəhərini simvolizə edən elementlərdən istifadə olunub.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***